# ŞİMALİ AZƏRBAYCANDA ÇAR HAKİMİYYƏT ORQANLARININ MÜSTƏMLƏKƏÇİLİK SİYASƏTİNİN BƏZİ MƏQAMLARI HAQQINDA (XIX ƏSRİN 20-30-CU İLLƏRİNDƏ)

***Həsənov Hacı Nuru oğlu***
***A.A.Bakıxanov adına Tarix İnstitutu "Şimali Azərbaycanın XIX-XX əsrin əvvəlləri tarixi" şöbəsinin müdiri***
***hacihasanov@mail.ru***

**Xülasə:** *Mövcud məqalədə 1826-cı il anti-rusiya Quba üsyanının bəzi aspektləri nəzərdən keçirilir. Təqdim olunan materiallar XIX əsrin ik sülsündə Şimali Azərbaycanda çarizmin müstəmləkəçilik siyasətinin bəzi xüsusiyyətlərini açıb göstərməyə imkan verir.*

**Açar sözlər**: Quba əyaləti, rub, Yerusəlimski, Yəhudi slobodası, komendant, müstəmləkəçilik

**Ключевые слова:** Кубинская провинция, руб, Ерусалимский, Еврейская слобода, комендант, колонизаторство

**Key words:** Guba province, rub, Yerusalim, Jewish settlement, commandant, colonialism

Məlumdur ki, XIX əsrin ilk otuz illiyi ərzində çarizmin Güney Qafqazda, o cümlədən Quzey Azərbaycan da apardığı işğalçı müharibələr yerli xalqların, habelə bu diyarın ən çoxsaylı xalqı olan Azərbaycan türklərinin ciddi müqaviməti ilə rastlaşmışdı. Azərbaycan torpağında, Azərbaycan torpağı uğrunda gedən bu müharibələrdə müstəmləkəçilərə qarşı duran başlıca qüvvə də elə azərbaycanlılar olmuşdur. Həm müharibələrin gedişində, həm də müharibələrarası dövrdə (1813-1826-cı illər) Quzey Azərbaycanın müxtəlif bölgələrində dəfələrlə çar hakimiyyət orqanlarının yürütdüyü siyasətə qarşı, ayrı-ayrı orqanlar və məzmunların özbaşınalıqlarına qarşı müxtəlif xarakterli və müxtəlif miqyaslı xalq çıxışları baş vermişdir.

Haqqında danışdığımız dövrdə Quzey Azərbaycanda mövcud olmuş durum, burada getmiş sosial-iqtisadi, ictimai-siyasi və s. proseslərin sovet, həm də çağdaş müstəqil Azərbaycan tarixşünaslığında geniş şəkildə araşdırılmışdır. Görkəmli Azərbaycan tarixçiləri akademik Ə.S.Sumbatzadə (6), Azərbaycan Elmlər Akademiyasının müxbir üzvləri M.Ə.İsmayılov (5), Y.M.Mahmudov (8), habelə tarix üzrə elmlər doktoru D.U.İsmayılzadə (6) və b. bu dövrü müxtəlif proseslərini geniş şəkildə araşdırmışdılar.

Azərbaycan tarixi üzrə müxtəlif ümumiləşdirici əsərlərdə də (1,2 ), həmin problemlər ümumi şəkildə işıqlandırılmışdır.

Haqqında danışdığımız dövrün ən mühüm proseslərindən biri də burada çarizmin əleyhinə getmiş xalq azadlıq hərəkatıdır. M.Ə.İsmayılov, H.Y.Verdiyeva, Ə.F.Məmmədov, R.Qurbanov və b. (9, 15, 16) bu proseslərin tədqiqi istiqamətində xeyli iş görmüşdülər.

Lakin R.Qurbanovun namizədlik dissertasiyası və onun əsasında hazırladığı monoqrafiya (7) istisna edilməklə 1876-cı ildə az qala bütün Quzey Azərbaycanı bürümüş ümummüsəlman üsyanı hələ də kompleks şəkildə araşdırılmış, xüsusən də bu üsyanlardan sonra çar hakimiyyət orqanlarının həyata keçirdiyi kütləvi və amansız cəza tədbirləri, bu tədbirlərin həyata keçirildiyi dövrdə çar məmurlarının törətdikləri qanunsuzluqlar indiyədək tədqiqatlardan kənarda qalmışdır.

Biz bu kiçik yazıda 1826-cı ildə Qubada baş vermiş üsyanlardan sonra burada həyata keçirilmiş kütləvi cəza tədbirlərindən və cəzaların reallaşdırılmasının gedişində çar məmurlarının törətdikləri özbaşınalıqlardan söhbət açmaq istəyirik. Məqaləmizin yazılması üçün başlıca qaynaq rolunu o zamankı divan mirzəsi, Köhnə Quba sakini İsmayıl Molla Salah oğlunun 1829-cu il 30 may tarixli şəhadəti (10, 208, 223), auditor, istintaq komissiyasının üzvü Kukarskinin «təzminat taxılının», təzminatın yığılması üzrə komissiyanın üzvləri tərəfindən qanunsuz olaraq paylaması haqqında qeydi (10), habelə hərbi

məhkəmə komissiyasının 1831-ci il iyul tarixli ittihamnaməsi (10) və bir neçə başqa qaynaq əsasında yazmışıq.

Artıq yuxarıda adını çəkdiyimiz Mirzə İsmayılın (Kərbəlayi İsmayılın) 13-cü dərəcəli auditor Kukarskiyə general-mayor Zavadovskinin və mayor Çernikov-Anuçinin yanında verdiyi istintaq ifadəsinə görə, 74 yaşı var idi; o, hələ xanlıq dövründə 22 il xan divanının mirzəsi kimi çalışmış, Qubanın 1806-cı ildə Rusiya tərəfindən işğalından bir qədər sonra düz 20 il, ta 1828-ci ildə müstəntiq polkovnik Buxarin tərəfindən vəzifəsindən uzaqlaşdırılana qədər Quba əyalətində şəhər məhkəməsinin mirzəsi olmuşdur.

Mirzə İsmayılın ifadəsində belə bir maraqlı və qiymətli məlumat var: «Cənab Raqozin buraya (Qubaya – H.H.) gəldikdən sonra asılmışların (dara çəkilmişlərin – H.H.) siyahısının möhürlə təsdiq etmək üçün mahal naiblərini polkovnik Ağa bəy Sadığovun evinə yığmışdır…».

Sabiq divan mirzəsi Kərbəlayi İsmayılın istintaqa verdiyi ifadəyə görə o, Quba əyalət komendantı vəzifəsini icra edən Abşeron alayının kapitanı Parxomovun əmri ilə 1826-cı il Quba üsyanında iştiraka görə demək olar ki, bütün əyalət əhalisi üzərinə qoyulmuş taxıl cəriməsini («təzminat taxılını») taxılı olmayan sakinlərdən pulla almalı, pulu isə komendanta və ya bütün bu işlərdə yaxından iştirak edən dilmanc erməniyə – Sergey Yerusəlimskiyə verilməli idi. Kərbəlayi İsmayıl təxminən bir ay ərzində əhalidən müxtəlif yollarla topladığı pulları S.Yerusəlimski vasitəsi ilə əyalətin komendantına təhvil vermişdir. Xınalıq yüzbaşıları Ağakişi, Yusif və Polad S.Yerusəlimski ilə razılığa gəlmişdilər ki, kəndin ödəməli olduğu 400 rub taxılın əvəzinə hər rub buğda üçün 11 mis rubl. hər rub arpa üçün isə 2 gümüş rubl ödənilsin. Onlar topladıqları 1104 gümüş rublu K.İsmayıla çatdırmış, sonuncu isə həmin pullarla dolu olan «iki kiçik xurcunu» Yerusəlimskiyə təhvil vermişdir.

Yerli rus hərbi hissələrinin taxıla güclü ehtiyacı yarandığı şəraitdə yuxarı hakimiyyət orqanları bunun səbəblərini araşdırmağa başlayanda isə əyalət komendantı Parxomov, keçmiş polismeyster Cavad bəy Qazarov, Sergey Yerusəlimski Kərbəlayi İsmayıla təzyiqlər göstərərək onu müstəntiq Buxarinə verdiyi ifadəni dəyişməyə məcbur etmək istəmişdilər. Erməni dilmanc hətta yerli əsilzadələrdən Cəfərqulu ağa (Abbasqulu ağa Bakıxanovun qardaşı ? – H.H.) və Yəhya bəyi bütün günahları Kərbəlayi İsmayılın üstünə yıxmağa, «təzminat taxılının» əvəzinə pulun yığılması haqqında guya ki Parxomovun heç bir əmri olmadığı, bunun Kərbəlayi İsmayıl tərəfindən edildiyi barəsində istintaqa ifadə verməyə səsləmişdi.

Kərbəlayi İsmayıl taxılın yığılması zamanı rus məmurlarının kəndliləri çəkidə aldatmaları haqqında, əyalət komendantının bu işdə şəxsən iştirakı, əhalidən taxıldan əlavə «çərimə mal-qara» toplanması haqqında da məlumat verir. O, Buduq, Barmaq, Şabran, Şeşpara, Sırt, Yuxarıbaş, Xınalıq, Dib, Müşkür mahallarının əhalisindən 541 baş belə mal-qaranın müsadirə edilməsindən də bəhs edirdi.

Müfəttişlərdən Kukarskinin 1829-cu ilə aid məlumatlarından birində təkcə təzminat komissiyasının üzvü Priqovorski tərəfindən qanunsuz şəkildə 48 dəfə - komendant da daxil olmaqla müxtəlif məmurlara ümumilikdə 92,5 çətvər buğda və 66,5 çətvər arpa payladığı haqqında danışılır.

İstintaq materiallarından aydın olur ki, məmurlar əhalidən 1500-1600 rub artıq taxıl müsadirə etmişdilər. Məsələn, elə Kərbəlayı İsmayılın özü vergi pullarından 700 rubl mənimsəmiş, 1829-cu illərdə 15 rub taxıl səpmiş, onun oğlu, 1828-ci ildə ümumi varidatı cəmisi 300 rubl qiymətləndirilmiş Salı (Saleh - ? H.H.) Rusiya imperiyasının ən iri yarmarkalarından biri hesab edilən Makarov yarmarkasına elə həmin il 6809 rubl 40 qəpiklik (əskinasla) mal çıxarmışdır.

Polkovnik Buxarinin başçılığı altında aparılmış istintaqa cəlb edilmiş 552 nəfər qubalının ifadələrinə əsaslanan hərbi məhkəmə komissiyasının materialları bizim üçün bir neçə baxımdan maraqlı və qiymətlidir. İlk növbədə bu materiallar 1826-cı ildə Qubanı

bürümüş antirus, antimüstəmləkə üsyanının miqyası və vüsətindən xəbər verir, belə ki, asılanlarla yanaşı əyalətin demək olar ki, bütün mahalları üzərinə ciddi cərimələrin (həm taxıl, həm də mal-qara ilə) qoyulması bir daha sübut edir ki, bu üsyanda həm əyalət mərkəzinin – Qubanın sakinləri, həm də Yuxarıbaş, Xınalıq, Dib, Müşkür, Şabran, Şeşpara, Barmaq və b. mahalların əhalisi yaxından iştirak etmişdir. Özü də cərimələr arasında kəndlidən mahal naibi nədən müxtəlif şəxslərin olması üsyanın demək olar ki, bütün əhali təbəqələrini əhatə etməsindən xəbər verir.

Bir əyalət çərçivəsində dilmancdan tutmuş əyalət başçısına - komendantadək bütün məmurların korrupsiyaya qurşanması Rusiyanın, Şimali Azərbaycandakı müstəmləkəçi inzibati idarəçiliyinin çürük maliyyətinə də dəlalət edir.

Camaata zülm edənlər, xəzinə malını dağıdanlar arasında ermənilərin çoxluğu da (hərçənd ki, həmin dövrdə Quba əyalətində hər o qədər də erməni yox idi) diqqəti çəkir: Quba şəhərinin keçmiş polismeysteri Qazarov, şəhər məhkəməsinin dilmancları Yerusəlimski, Asaturov və b. Üç il ərzində – 1828-1831-ci illərdə aparılan uzun-uzadı istintaqdan sonra hərbi məhkəmənin 1831-ci il 4 iyul tarixli qərarına əsasən Kərbəlayi İsmayıl sanı ilə cavab verməli idi. Əsas cinayətkarlar – qanunsuz toplanılmış pulları bilavasitə mənimsəmiş əyalət komendantı Parxomov, ştabs-kapitan Priqorovski, poruçik Pomilin və erməni (qaynaqda belə təqdim olunub – H.H.) Sergey Yerusəlimski» müttəhim kimi Tiflis komendantının ixtiyarına verilsələr də, onlardan ilk üç nəfəri ev dustağı edilmiş, ancaq erməni Metex qalasına salınmışdı.

Belə hallar təkcə Quba əyaləti üçün xarakterik deyildi. 1830-cu ildə Cənubi Qafqaz diyarını təftiş etmiş senatorlar Meçnikov və Kutaysova məruzəsində Qafqaz baş rəisi dəftərxanasının müdiri V.Yanoviç açıqca etiraf edirdi ki, 1876-1828-ci illərdə «vergilərin ikiqat yığılması, bir çox yerlərdə mümkün idi». Onun məlumatına görə, Yelisavetpol qəzasında mahal bəyləri heç bir sənəd, təlimat və sərəncam olmadan vergiləri özbaşına, istədikləri kimi və ikiqat həcmdə toplamışdılar (3). Elə bu qəzadaca hər tağar 25 pud 29 funt olduğu halda kəndlilərdən hər tağar əvəzinə 31 pud 27,5 funt taxıl, yığılmışdır (4). «Çox tez-tez aşkar olunan belə özbaşınalıqların günahkarlarının ifşa etmək çox çətindir…» ( 4).

Adlarını yuxarıda çəkdiyimiz senatorların 1830-1831-ci ilin əvvəllərində hazırladıqları «Cənubi Qafqaz diyarında idarəçilik sisteminin yenidən qurulması» barədə layihədə də qeyd edildiyi kimi, «iğtişaşlar (üsyan və həyəcanlar – H.H.) və onlardan ayrılmaz olan sui-istifadələr xalqa əzab verir…, lahiyə sistemi xanların dövründə olduğu kimi qalır… əvvəlki vəziyyətdə saxlanılmış xalq Rusiyadan yan qaçır…».

***Ədəbiyyat***

1.Azərbaycan tarixi. 3 cilddə, II cild, B., 1963
2.Azərbaycan tarixi. 7 cilddə, IV cild., B.,2007
3.Докладная записка правителя канцелярии сенаторам Мечникову и Кутайсову по вопросу…. о злоупотреблениях во время военнах действий 1826-1828 гг. // Колониальная политика Российского царизма в Азербайджане в 20-60-х гг. XIX в. Ч.I. – М.,- Л., 1936, сс.227-230.
4.Из проекта ревизовавшего Зак. края сен-ра Мечникова о преобразовании система управлении в Закавказье и колонизации края // там же, сс.230-232
5.İsmayılov M.Ə. Azərbaycan tarixi. B., 1992.
6.Исмаил-заде Д.И. Русское крестьянство на Кавказе (30-е гг. XIX нач XX вв.) М.,1982.
7.Qurbanov R. XIX əsrin I yarısında Şimali Azərbaycanda azadlıq hərəkatı – B., 2006
8.Y.Mahmudov Y.M. Azərbaycan: qısa dövlətçilik tarixi. – B.
9.Məmmədov Ə.F. Şimali-qərbi Azərbaycan: Zaqatala dairəsi. B., 2001
10.О злоупротреблениях и д. Кубинского коменданта Пархомова и др. членов комиссии по сбору контрибуции с восставших в 1826 г. жителей Кубинский провинции. 1829 г.

мая 30 -1831 г. июня и // Колониальная политика Российского царизма в Азербайджане в 20-60-х гг. XIX в. Ч.I. – М.-Л., 1936, сс.208-223
11.Сумбатзаде А.С. Присоединения Азербайджана на к России. – Б., 1955
12.Его же. Кубинское восстание 1937 г. – Б., 1961
13.Его же.-Социально-экономические предпосылки победи советской власти в Азербайджане. – М., 1972
14.Его же. Азербайджанская историография XIX-XX вв. – Б., 1987
15.Вердиева Х.Ю. Население Северного Азербайджана в I половине XIX века. -Б., 1995
16.Ее же. -Переселенческая политика Российской и империи в Северном Азербайджане в XIX – нач. XX вв. – Б., 2006

## О НЕКОТОРЫХ МОМЕНТАХ КОЛОНИАЛЬНОЙ ПОЛИТИКИ ЦАРСКИХ ВЛАСТЕЙ В СЕВЕРНОМ АЗЕРБАЙДЖАНЕ (20-30-Е ГГ. XIX В.)

***Гасанов Гаджи Нуру оглы***

***Резюме***

В настоящей статье рассматриваются некоторые моменты антироссийского Кубинского восстании 1826 г. Приведенные материалы позволяют раскрыть некоторые особенности колониальной политики царизма в Северном Азербайджане в I трети XIX века.

## THE CHIEF OF DEPARTMENT “HISTORY OF NORTHERN AZERBAIJAN OF THE 19TH-EARLY 20TH CENTURIES” OF INSTITUTE OF HISTORY NAMED AFTER A.A.BAKIKHANOV

***Hasanov Haci Nuru***

***Summary***

The given paper discusses some aspects of the anti-Russian Cuban uprising of 1826. The presented materials allow revealing some features of the colonial policy of tsarism in Northern Azerbaijan in the first third of the 19th century.

# XX ƏSRDƏ NADIR VƏ QIYMƏTLI KITABLARIN ELEKTRON KATALOQUNUN YARADILMASI PROSESI

***Gülalıyev Elçin Gülaməddin oğlu***
**elchin.gulaliyev1@gmail.com**

**Xülasə**: *XX əsrin 50-ci illərindən etibarən dünya miqyasında inkişaf etməyə başlamış texnika və texnologiyaların inkişaf səviyyəsi, beynəlxalq və kütləvi xarakter daşımışdır. Sözsüz, texniki və texnoloji nailiyyətlər arasında kitabxana məkanının elektronlaşdırılması mühüm yer tutur. XX əsrdə elektron kitabxananın yaradılması layihələri arasında müəllifləri bir sıra Avropa ölkələri olan layihə və proqramlar da var idi. XX əsrin 60-cı illərindən başlayaraq bu layihələr əsasında maşın formatında biblioqrafik tərtibatın avtomatlaşdırılmış sistemləri yaradılmışdır. Tədqiqat nəticəsində məlum olmuşdur ki, rəqəmsal kitabxanaların yaradılması yolu beynəlxalq təcrübəyə əsaslanan fundamental elmi-nəzəri, metodoloji və praktiki amillərlə səciyyələnir.*

**Açar sözlər:** elektron kitabxana, kitabxana məkanının elektronlaşdırılması tarixi, kitabxana məkanının elektronlaşdırılması üzrə layihələr, biblioqrafik qeydiyyatın avtomatlaşdırılmış sistemləri, elmi-nəzəri amillər, metodoloji amillər, praktik amillər, nadir və qiymətli nəşrlər